**Regionlarının inkişafı ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bölgələrin inkişafı sahəsində uğurla reallaşdırılan dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına təkan verib.**



# İdman infrastrukturu regionlarda da inkişaf edir

## Prezidentin Qərb bölgəsinə səfəri Azərbaycanın III MDB Oyunlarına ən yüksək səviyyədə hazırlıq gördüyünü təsdiqlədi

Bölgələrin sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasına mütəmadi olaraq şəxsən nəzarət etməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında əksini tapmış vacib istiqamət insan amilinə xidmət etməklə yeni sosial-infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə, aqrar və idman müəssisələrinin tikintisi, yeni yolların çəkilişi və əsaslı bərpasını nəzərdə tutur. Prezident İlham Əliyev hər il bu proqramların hansı formada icrası ilə yerində maraqlanır, regionlara səfər edərək görülən işlərlə maraqlanır. Həmçinin Prezident müxtəlif sosial-xidmət obyektlərinin, istehsal müəssisələrinin açılışında iştirak edir, ictimaiyyət qarşısında çıxış edir, əhalini maraqlandıran suallara aydınlıq gətirir.

İyunun 23-24-də Yevlax, Göranboy, Mingəçevir şəhərlərinə səfər edən dövlət başçısı hər zaman olduğu kimi, yeni obyektlərin açılışlarını etdi, istifadəyə verilmiş müəssisələrlə tanış oldu.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları bölgələrin davamlı inkişafını təmin etmək, sosial rifahı yüksəltmək və iqtisadiyyatın qeyri-neft sektorunu gücləndirmək məqsədilə hazırlanmış strateji sənədlər idi. Sənədlərin əsas məqsədləri regionlarda dayanıqlı iqtisadi artımın təmin edilməsi, yeni iş yerlərinin yaradılması, infrastrukturun (yollar, su, qaz, enerji təchizatı və s.) yaxşılaşdırılması, kənd təsərrüfatı və sənaye potensialının artırılması, kiçik və orta sahibkarlığın inkişafı, sosial xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması olmuşdur.

Məlumdur ki, bu ilin 28 sentyabr - 8 oktyabr tarixlərində Azərbaycan növbəti dəfə beynəlxalq idman yarışına evsahibliyi edəcək. MDB-nin "idman paytaxtı" elan edilən Gəncədə, eləcə də Mingəçevir, Qəbələ, Şəki, Göygöl, Yevlax, Xankəndi şəhərlərində III MDB Oyunları keçiriləcək. 12 meydançada 23 idman növü üzrə keçiriləcək yarışlarda 7 ölkədən təxminən 1700 idmançı iştirak edəcək. Bu, yalnız idman bayramı deyil, həm də regionların inkişafı, gənclərin yetişdirilməsi və idman diplomatiyasının güclənməsi baxımından strateji hadisə olacaq.

Prezidentin Qərb bölgəsinə səfəri çərçivəsində iyunun 23-də Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanışlıq da bir daha təsdiq etdi ki, Azərbaycan III MDB Oyunlarına yüksək səviyyədə hazırlıq görür. Kompleksə gəlincə, tikintisinə 2024-cü ilin yanvarında başlanılan obyektin əsas binasında yerləşən universal idman zalı 1100 tamaşaçı tutumuna malikdir. Burada basketbol, voleybol, həndbol, minifutbol, badminton, gimnastika, cüdo, güləş, taekvondo, boks, karate və idmanın digər növləri üzrə məşqlərin və yarışların keçirilməsi nəzərdə tutulur. Kompleksdə 1300 tamaşaçı tutumuna malik tribunası olan, standartlara cavab verən futbol meydançası, həmçinin iki minifutbol meydançası yaradılacaq. Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar da Yevlax Olimpiya İdman Kompleksində təşkil ediləcək.

Əlbəttə ki, Azərbaycanın bu sahədəki təcrübəsi bütün dünyaya bəllidir. Azərbaycan o ölkədir ki, Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. İslam Həmrəyliyi Oyunlarının ünvanı olub, "Formula-1" Azərbaycan Qran-Pri yarışlarına yüksək səviyyədə evsahibliyi edib. Yəni idman sahəsində yarışların keçirilməsində çox böyük təcrübəsi olan Azərbaycan ortaya nümunələr qoyur.

Məhz bu fomatlı idman yarışlarını yüksək səviyyədə keçirməsi, idmançılarımızın beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil etmələri, fəxri kürsüdə dayanaraq bayrağımızı başları üzərində dalğalandırmaları Azərbaycanı dünyada idman ölkəsi kimi tanıdıb. Bu uğurlar təkcə idmançıların şəxsi zəhməti ilə deyil, həm də dövlətin idmana göstərdiyi diqqət və qayğı nəticəsində mümkün olub. Müasir idman infrastrukturu, beynəlxalq yarışlarda qazanılan medallar və Azərbaycanda keçirilən nüfuzlu turnirlər bu fikri bir daha təsdiqləyir.

Əminliklə deyə bilərik ki, böyük təcrübəyə malik ölkə kimi Azərbaycan III MDB Oyunlarına da ən yüksək səviyyədə evsahibliyi edəcək, yurdumuza təşrif buyuracaq 7 minə yaxın beynəlxalq idman ictimaiyyətinin nümayəndəsi Azərbaycanın təşkilatçılıq qabiliyyətinə heyran qalacaq, əhsən deyəcək. Dünya bir daha Azərbaycanın güclü idman potensialına malik olan bir ölkə olduğuna şahidlik edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 26 iyun (№130).- S.15.